LEGION FINANCIAL

# "LEGİON FİNANCİAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 1000 (bir min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların

# EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Mən, aşağıda imza edən,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumu təsdiq edirəm.
2. "LEGİON FİNANCİAL" ASC-nin hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1000 (bir min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlarının Emissiya Prospektinə daxil edilən bütün məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat verirəm və məsuliyyəti öz üzərimə götürürəm.

**"LEGİON FİNANCİAL" ASC-nin Direktoru**

**Məmmədov Böyükağa Mirkamal oğlu**________________________

**Tarix: 30.04.2024-cü il**

# MÜNDƏRİCAT


XÜLASƏ........................................................................................ 4

1. Xəbərdarlıq.................................................................................. 4

2. Emitent haqqında məlumat.............................................................. 4

3. Qiymətli kağızlar haqqında məlumat................................................ 6

4. Rsk faktorları .................................................................................. 7

5. Təklif ............................................................................................ 8

6. Emitentin auditorları barədə məlumat ............................................ 10

7. Seçilmiş maliyyə məlumatları ........................................................ 11

8. Emitent haqqında məlumat ............................................................ 12

9. Emitentin biznesinin icmalı ............................................................ 13

10. Digər təşkilatlarda iştirak ............................................................. 13

11. Tendensiyalar barədə məlumat .................................................... 13

12. Gəlir proqnozu ............................................................................ 14

13. Emitentin idarəetmə və nəzarət orqanları ..................................... 14

14. İdarə heyətinin işgüzar praktikası ................................................ 15

15. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər ........ 15

16. Emitentin maliyyə məlumatları .................................................... 16

17. Emitent haqqında əlavə məlumatlar ............................................. 19

18. İstiqrazlar barədə tələb olunan məlumat ...................................... 21

19. İstiqrazlar barədə məlumat .......................................................... 22

20. Təklifin şərtləri ............................................................................ 25

21. Ticarətə buraxılma və onun tənzimlənməsi .................................. 27

22. Kredit reytinqləri ........................................................................ 27

## XÜLASƏ

### 1. Xəbərdarlıq

1.1. Bu sənəd emissiya prospektinin giriş hissəsidir;

1.2. İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçiriliməlidir;

1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

### 2. Emitent haqqında məlumat

**2.1. Emitentin tam adı:** "LEGİON FİNANCİAL" Açıq Səhmdar Cəmiyyəti (Bundan sonra-Emitent);

**2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, İsmayılbəy Qutqaşınlı, ev 36, 1-ci mərtəbə, qapı 3

**2.3. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** Emitent minik avtomobillərinin maliyyə lizinqinə verilməsi sahəsində fəaliyyət göstərir. Bu sahəyə təsir edən tendensiya satış baxımından kredit faiz dərəcələri və minik avtomobillərinin qiymətlərindəki dəyişkənliklər, lizinq ödənişləri baxımından isə lizinqalanların ödəmə qabiliyyətidir.

**2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Belə bir mövqe mövcud deyil.

**2.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Gəlir proqnozu mövcud deyil.

**2.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Kənar audit rəyinə əsasən, Cəmiyyətin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından təşkilatın il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**2.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

(Azərbaycan manatı ilə)

| | 31 dekabr 2023 (Audit olunmuş) | 31 dekabr 2022 (Audit olunmuş) | 31 dekabr 2021(Audit olunmuş) |
|---|---|---|---|
| **Cəmi aktivlər** | 4 750 763 | 2 135 486.47 | 417 444.30 |
| **Cəmi öhdəliklər** | 1 889 430 | 406 170.91 | 853.32 |
| **Cəmi kapital** | 2 861 333 | 1 729 315.56 | 416 590.98 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 22 414.29 | 11 852.72 | 8 637.79 |
| **Maliyyə lizinqli əməliyyatları üzrə alacaqlar** | 4 727 467 | 2 119 679.43 | 408 794.39 |
| **Faiz gəlirləri** | 893 129 | 418 202.97 | 19 275.39 |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət/(zərər)** | 770 444 | 353 405.74 | 17 444.30 |
| **Mənfəət vergisi** | (154 112) | -70 681.16 | -853.32 |
| **Hesabat dövrünün xalis mənfəəti/(zərəri)** | **616 332** | **282 724.58** | **16 590.98** |

Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin maliyyə vəziyyətində və maliyyə nəticələrində əhəmiyyətli dəyişikliklər olmamışdır.

**2.8. Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:** Emitentin maliyyə öhdəlikləri əsasən alınmış kreditlər və qiymətli kağızlar üzrə öhdəliklərdən ibarət olmuşdur. Bu kreditlər qısamüddətli və annuitet ödəmə şərtli kreditlərdir. Bu qaynaqlar hesabına cəlb edilmiş vəsaitlər lizinq portfelində yerləşdirilmişdir. Bu lizinq portfeli üzrə yığımlara təsir edəcək amillər öz növbəsində Emitentin cəlb edilmiş vəsaitlər üzrə ödəmə qabiliyyətinə təsir edə bilər. Lizinq portfelinin keyfiyyət göstəriciləri yaxşı olduğundan və lizinqalanların maliyyələşdirilməsi zamanı onların gələcək ödəniş qabiliyyətləri təhlil olunduğundan Emitentin ödəmə qabiliyyəti ilə bağlı riskləri nəzarətdə saxlanılmış, minimuma endirilmişdir.

Maliyyələşmə mənbələri barədə məlumat:

| |
|---|
| İstiqraz buraxılışı vasitəsilə maliyyələşmə<br>Azərbaycan manatı ilə |

| | 31.12.2023 | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| Ümumi məbləğ | 1000,000.00 | - | - |
| Faiz dərəcəsi | 15% | - | - |
| Tədavül müddəti | 1800 gün | - | - |

Alınmış kreditlər vasitəsilə maliyyələşmə

Azərbaycan manatı ilə

| | 31.12.2023 | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| Ümumi məbləğ | 734,683.36 | 346,415.54 | - |
| Faiz dərəcəsi | 20% | 20% | - |
| Tədavül müddəti | 360 gün | 360 gün | - |

**2.9. Emitentin əsas fəaliyyətlərinin təsviri:** Minik avtomobillərinin maliyyə lizinqi. Yəni, əmlakın uzun müddətli icarəyə verilməsi və müqavilə müddəti sonunda bu əmlakın lizinqalana satılması nəzərdə tutulur. Maliyyə lizinqində əmlakı adətən müştəri (lizinqalan) seçir və lizinq şirkətinə bu əmlakın alınması üçün sifariş verir.

**2.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xusisiyyətləri:** Cəmiyyətin ali idarəetmə orqanı onun Səhmdarlarının ümumi yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi yığınaqda qərarlar AR Mülki Məcəlləsi və Cəmiyyətin nizamnaməsinə əsasən qəbul edilir.

## 3. Qiymətli kağızlar haqqında məlumat

**3.1. İstiqrazların növü:** faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;

**3.2. İstiqrazların valyutası:** Azərbaycan manatı;

**3.3. Tədavül müddəti:** 1800 təqvim gün;

**3.4. İstiqrazlarla təsbit olunan məhdudiyyətlərin təsviri:**Mövcud deyil;

**3.5. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 15 (on beş) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.6. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 15% təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 30 gündən bir ödəniləcəkdir.İstiqrazların tədavül müddəti 1800 təqvim günü təşkil edir.İstiqrazların dəyəri tədavül müddətinin sonunda ödəniləcək.

İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

**3.7. İstiqrazların geri satın alınma şərtləri:** Emitent tərəfindən istiqrazların tədavülü müddəti ərzində geri alınması nəzərdə tutulmuşdur.

**3.8. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1800 təqvim günü təşkil edir. İstiqrazların tədavül müddəti istiqrazların BFB-də yerləşdirildiyi gün başlayır. İstiqrazların nominal dəyəri istiqrazların tədavül müddətinin son günündə ödəniləcək.

İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri - 1000 (Bir min) Azərbaycan manatı ;

D- İstiqrazların illik gəlirlik dərəcəsi -15 (on beş);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti - 30 gün

**3.9. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqraz mülkiyətçilərinin təmsilçisi mövcud deyil;

**3.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** bu emissiya prospekti təmin edilməmiş istiqrazların təklifini nəzərdə tutur.

**3.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcək, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən İstiqrazların buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra listiqə daxil edilməsi ilə bağlı müraciət ediləcəkdir. Bakı Fond Birjası Azərbaycan Respublikasında mütəşəkkil fond bazarının formalaşdırılması məqsədilə Qapalı Səhmdar Cəmiyyəti formasında yaradılmış kommersiya təşkilatıdır. Bu təşkilat 2000-ci ildən Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin ("QKDK") verdiyi "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. Fəaliyyət göstərdiyi ünvan AZ1141 Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tauer, Bakı şəhəri, Azərbaycan Respublikası, rəsmi internet səhifəsi "www.bfb.az"dır.

## 4.Risk faktorları

**4.1. Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- İnflyasiya riski- pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski- daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Likvidlik riski- müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Təbii risk- insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
- Valyuta riski- valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski.

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

- Faiz dərəcələri: Faiz dərəcələrinin dəyişməsi həm icarəyə verənlər, həm də icarəyə götürənlər üçün borclanma dəyərinə təsir edə bilər. Faiz dərəcələrindəki dəyişikliklər lizinq qərarlarına, icarə şərtlərinə və gəlirliliyə təsir göstərə bilər.
- İqtisadi Şərait: Ümumi iqtisadi mühit, o cümlədən ÜDM-in artımı, inflyasiya və işsizlik dərəcələri kimi amillər icarəyə götürülmüş aktivlərə və icarəçilərin icarə ödənişlərini həyata keçirmək qabiliyyətinə təsir göstərə bilər.
- Bazar tendensiyaları: Bazar tendensiyaları icarəyə götürülmüş aktivlərə tələbata təsir göstərə bilər. Məsələn, texnologiyadakı irəliləyişlər İT avadanlıqlarının lizinqinə olan tələbata, istehlakçı seçimlərindəki dəyişikliklər isə icarəyə götürülmüş avtomobillərə və ya pərakəndə satış sahəsinə olan tələbata təsir göstərə bilər.
- Aktivin Keyfiyyəti və Amortizasiyası: İcarəyə götürülmüş aktivlərin keyfiyyəti və köhnəlməsi lizinq fəaliyyətlərinə təsir göstərə bilər. Yüksək keyfiyyətli, yaxşı saxlanılan aktivlər daha çox icarəçi cəlb edə bilər və daha yüksək icarə dərəcələri tələb edə bilər, halbuki sürətli amortizasiyası olan aktivlər icarəyə verənlər üçün daha böyük risklər yarada bilər.
- Global hadisələr. Geosiyasi hadisələr, təbii fəlakətlər və digər qlobal amillər maliyyə bazarlarına, təchizat zəncirlərinə və istehlakçı inamına dalğalı təsir göstərə bilər ki, bu da lizinq fəaliyyətlərinə dolayı təsir göstərə bilər.

## 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Emissiyanın məqsədi alternativ maliyyə resurslarının cəlb edilməsi yolu ilə cəmiyyətin fəaliyyətinin genişləndirilməsi və bu yolla mənfəətin əldə edilməsidir. İstiqrazların yerləşdirilməsindən əldə edilən vəsait lizinq fəaliyyəti üçün lizinqalanlar tərəfindən sifariş edilən avtomobillərin alınmasına sərf ediləcək.

**5.2. Təklifin şərtlərinin təsviri:** İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların

alınması üçün sifarişləri BFB-yə təqdim edir. Hərrac zamanı investorlar tərəfindən eyni qiymət ilə təqdim edilən sifarişlərdə istiqrazlara tələbat təklifdən çox olduğu təqdirdə, istiqrazlar sifarişlərin icrası şərtlərinə müvafiq olaraq investorlar arasında sifarişlərdə göstərilmiş istiqrazların miqdarına mütənasib miqdarda yerləşdirilir. Yerləşdirmə müddəti ərzində investorlar istiqrazların alınması üçün pul vəsaitlərini "Azər-Türk Bank" ASC-də emitentin adına açılmış müvəqqəti cari hesaba köçürməlidirlər. İstiqrazların dəyəri pul şəklində ödənilməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) açıqlanır.

**Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:**

**Yerləşdirmənin başlanma tarixi.** Yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin saytında investorlara açıqlanacaqdır.

**Yerləşdirmənin başaçatma tarixi** hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gündür. Hərrac bir gün ərzində baş tutmalıdır.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

***"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.*** yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.

BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower).

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

Tel: (+99412) 539 72 49.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

***Milli Depozit Mərkəzi.*** Milli Depozit Mərkəzi (bundan sonra "MDM") Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

qiymətli kağızların saxlanması və uçotunun aparılması;
qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

**Anderrayter**. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 12.10.2018 tarixli İŞ-03 nömrəli lisenziyaya malik olan "Assist Finance İnvestisiya Şirkəti" ASC qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Səhmlərin abunə yazılışı müddəti ərzində anderrayter uçota alınmış sifarişləri fond birjasının ticarət sisteminə daxil edir və BFB-nin ticarət sistemi vasitəsi ilə səhmlərinin yerləşdirilməsi xidmətlərini göstərir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə səhmlər yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

əqdin məbləğinin 0,02%-i həcmində "Bakı Fond Birjası" QSC komissiyası;
investisiya şirkətinin xidmət haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
istiqraz alıcısının depo hesabı olmadığı təqdirdə "depo" hesab açılması üçün 10 manat (bu məbləğin 5 manatı MDM-in komissiyası, digər 5 manat isə investisiya şirkətinin komissiyası təşkil edir);
hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

## 6. Emitentin auditorları barədə məlumat

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İL | Auditorun adı | Auditorun ünvanı | Auditorun üzv olduğu təşkilat |
|---|---|---|---|
| 2021 | Çələbiyev Eldəniz Nazim oğlu | Bakı ş., N.Nərimanov rayonu, A.Heydərov küçəsi 8 | Azərbaycan Respublikasının Auditorlar Palatası |

| | | | |
|---|---|---|---|
| 2022 | Çələbiyev Eldəniz Nazim oğlu | Bakı ş., N.Nərimanov rayonu, A.Heydərov küçəsi 8 | Azərbaycan Respublikasının Auditorlar Palatası |
| 2023 | "RSM Azərbaycan" MMC | Bakı ş., Xocalı pr. 37. | Azərbaycan Respublikasının Auditorlar Palatası |

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Emitentin auditorlarının dəyişdirilməsinin səbəbi Emitentin qiymətli kağızların buraxılması ilə bağlı olaraq investorlara daha dəqiq audit rəyinin təqdim olunması ilə bağlıdır.

## 7. Seçilmiş maliyyə məlumatı

7.1. son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:

*(Azərbaycan manatı ilə)*

| Açıqlama | 31 dekabr 2023 (Audit olunmuş) | 31 dekabr 2022 (Audit olunmuş) | 31 dekabr 2021(Audit olunmuş) |
|---|---|---|---|
| **Cəmi aktivlər** | 4 750 763 | 2 135 486.47 | 417 444.30 |
| **Cəmi öhdəliklər** | 1 889 430 | 406 170.91 | 853.32 |
| **Cəmi kapital** | 2 861 333 | 1 729 315.56 | 416 590.98 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 22 414.29 | 11 852.72 | 8 637.79 |
| **Maliyyə lizinqli əməliyyatları üzrə alacaqlar** | 4 727 467 | 2 119 679.43 | 408 794.39 |
| **Faiz gəlirləri** | 893 129 | 418 202.97 | 19 275.39 |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət/(zərər)** | 770 444 | 353 405.74 | 17 444.30 |
| **Mənfəət vergisi** | (154 112) | -70 681.16 | -853.32 |
| **Hesabat dövrünün xalis mənfəəti/(zərəri)** | **616 332** | **282 724.58** | **16 590.98** |

## 8. Emitent barədə məlumat

**8.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** "LEGİON FİNANCİAL" Açıq Səhmdar Cəmiyyəti;

**8.2. Emitentin qısaldılmış adı:** "LEGİON FİNANCİAL" ASC;

**8.3. Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi:** VÖEN 2006222901, 12.06.2020-ci il.

**8.4. Emitentin olduğu yer və emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, İsmayılbəy Qutqaşınlı, ev 36, 1-ci mərtəbə, qapı 3

**8.5. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** "LEGİON FİNANCİAL" ASC 13.01.2020-ci il tarixində 2006222901 qeydiyyat nömrəsilə dövlət qeydiyyatına alınmış "LEGİON FİNANCİAL" MMC-nin hüquqi varisidir. 29.11.2023-cü il tarixində "LEGİON FİNANCİAL" MMC təşkilati hüquqi formasını dəyişdirərək "LEGİON FİNANCİAL" ASC kimi yenidən dövlət qeydiyyatına alınmışdır.

**8.6. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

**8.7. Hüquqi ünvanı:** Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, İsmayılbəy Qutqaşınlı, ev 36, 1-ci mərtəbə, qapı 3

**8.8. Faktiki ünvanı:** Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, İsmayılbəy Qutqaşınlı, ev 36, 1-ci mərtəbə, qapı 3

Telefon: +994502635474

İnternet səhifəsi: www.legion.az

Elektron poçt ünvanı: info@legion.az

**8.9. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** İnvestisiya mövcud olmamışdır.

**8.10. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri mövcud deyildir.

**8.11. Emitentin qiymətli kağzlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (bundan sonra-BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.

BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower).

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

Tel: (+99412) 539 72 49.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir

**9. Emitentin biznesinin icmalı**

**9.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətinin təsviri:** Emitentin əsas fəaliyyəti minik avtomobillərinin maliyyə lizinqi xidmətinin həyata keçirilməsidir.

Son üç il ərzində Emitentin əsas fəaliyyət üzrə dövriyyəsi:

2020-ci il ərzində fəaliyyət olmamışdır;

2021-ci il ərzində təqdim edilmiş maliyyə lizinqi – 415 200 AZN,

faiz gəliri – 19275.39 AZN;

2022-ci il ərzində təqdim edilmiş maliyyə lizinqi – 2 429 953 AZN,

faiz gəliri – 418 202.97 AZN

2023-cü il ərzində - 4 803 890 AZN,

faiz gəliri – 893 129.07 AZN

**9.2. Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Yeni məhsullar və xidmətlər təqdim edilməmişdir.

**9.3.Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

Emitent maliyyə lizingi bazarında rəqabət aparır. Maliyyə lizinqin xidmətində əmlakın uzun müddətli icarəyə verilməsi və müqavilə müddəti sonunda bu əmlakın lizinqalanın mülkiyyətinə verilməsi nəzərdə tutulur. Bu növ lizinq xidməti Azərbaycanda geniş tətbiq olunur və lisenziyalaşdırılan fəaliyyət növlərinə aid edilməmişdir. Maliyyə lizinqi bazarında nəzarətedici orqan olmadığından və müvafiq statistik məlumatların məcmuəsi dərc edilmədiyindən bazarın ümumi həcmi haqqında məlumat mövcud deyildir. Banklar və bank olmayan kredit təşkilatları da bu fəaliyyət növü ilə məşğul olma hüququna malikdirlər və rəqabətin iştirakçılarıdırlar.

**9.4.Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:** Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

**10. Digər təşkilatlarda iştirak**

**10.1. Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri: Mövcud deyil.**

**10.2.Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

**11. Tendensiyalar barədə məlumat**

**11.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Göstərilən tarixdən

etibarən emitentin fəaliyyətində emissiya prospektinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**11.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Emitent ticari ildə mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi lizing təşkilatlarının səmərəli olmasına şərait yaradıb və hal-hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

## 12. Gəlir proqnozu

12.1. Gəlirlərin proqnozu mövcud deyil.

## 13. Emitentin idarəetmə və nəzarət orqanları

**13.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə məlumatlar:** **Emitentin ali idarəetmə orqanı-** səhmdarlarının ümumi yığıncağıdır.

| **Mövcud səhmdarlar barədə məlumat** | |
|---|---|
| İsmayılov Turan Mübariz oğlu | 13 950 ədəd səhm |
| Süleymanlı Rahim Rəhman oğlu | 5600 ədəd səhm |
| Soltanov Rövşən Rafiq oğlu | 2500 ədəd səhm |
| Məmmədov Böyükağa Mirkamal oğlu | 1350 səhm |

**Emitentin Müşahidə Şurası barədə məlumat:** Müşahidə Şurası yoxdur
**Emitentin İdarə Heyəti barədə məlumat:** Təkbaşına icra orqanı – Direktor

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Məmmədov Böyükağa Mirkamal oğlu | Direktor | Cəmiyyətin qanuni təmsilçisi funksiyasını icra edir; Təşkilatın adından qanunla qadağan edilməyən əqd və sazişlər bağlayır. fəaliyyətinə cari rəhbərlik edir; İşçilərin işə qəbul və işdən azad olunması ilə bağlı qərarlar qəbul edir; və s. |

**13.2. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən Emitentin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən məlumatlar direktor və ya idarəetmə orqanının digər üzvləri tərəfindən Emitentin iştirakçılarına yazılı şəkildə təqdim edilməlidir. Bu öhdəlik barədə Emitentin icra orqanının rəhbəri məlumatlıdır. Bu cür maraqlar ziddiyyətinə səbəb olan əqdlər yalnız Emitentin iştirakçılarının ümumi yığıncağının qərarı ilə bağlana bilər.

## 14. İdarə heyətinin işgüzar praktikası

**14.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Komitələr yoxdur.

**14.2. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

## 15.Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

**15.1. Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Adı | Vətəndaşlığı | Payların sayı | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| *İsmayılov Turan Mübariz oğlu* | *Azərbaycan Respublikası* | *13 950* | *59.62 %* |
| *Süleymanlı Rahim Rəhman oğlu* | *Azərbaycan Respublikası* | *5600* | *23.93%* |
| *Soltanov Rövşən Rafiq oğlu* | *Azərbaycan Respublikası* | *2500* | *10.68%* |

**15.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Mühüm iştirak payının sahibi tərəfindən Emitentə nəzarət Emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarların Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) səhmə malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

**15.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

## 16. Emitentin maliyyə məlumatları

**16.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmışdır.

**Maliyyə Vəziyyəti Haqqında Hesabat**

*Azərbaycan manatı ilə*

| Açıqlama | 31 dekabr 2023-cü il (audit olunmuş) | 31 dekabr 2022-ci il (Audit olunmuş) | 31 dekabr 2021-ci il (Audit olunmuş) |
|---|---|---|---|
| Aktivlər: | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 22,414 | 11,852.72 | 8,637.79 |
| Maliyyə lizinqi üzrə debitor borcları | 4,727,467 | 2,119,679.43 | 408,794.39 |
| Əmlak və avadanlıqlar | 882 | 3,954.32 | |
| Digər aktivlər | - | - | 12,12 |
| **Cəmi aktivlər** | **4,750,763** | **2,135,486.47** | **417,444.30** |
| Öhdəliklər: | | | |
| Buraxılmış borc qiymətli kağızları | 995,000 | - | - |
| Müddətli borc öhdəlikləri | 734,683 | 346,415.54 | - |
| Səhmdardan alınan borc vəsaitləri | 30,331 | - | - |
| Mənfəət vergisi öhdəliyi | 101,101 | 59,411.39 | 853.32 |
| Digər öhdəliklər | 28,315 | 343.98 | - |
| **Cəmi öhdəliklər** | **1,889,430** | **406,170.91** | **853.32** |
| Kapital: | | | |
| Nizamnamə kapitalı | 2,245,000 | 1,430,100 | 400,100 |
| Bölüşdürülməmiş mənfəət | 616,333 | 299,215.56 | 16,490.98 |
| **Cəmi kapital** | **2,861,333** | **1,729,315.56** | **416,590.98** |
| **Cəmi öhdəliklər və kapital** | **4,750,763** | **2,135,486.47** | **417,444.30** |

**Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabat**

*Azərbaycan manatı ilə*

| Açıqlama | 31 dekabr 2023-cü il (audit olunmuş) | 31 dekabr 2022-ci il (audit olunmuş) | 31 dekabr 2021-ci il (audit olunmuş) |
|---|---|---|---|
| Faiz gəlirləri | 893,129 | 418,202.97 | 19,275.39 |
| Faiz xərcləri | (132,740) | (55,425.54) | - |

| | | | |
|---|---|---|---|
| **Xalis faiz gəlirləri** | **760,389** | **362,777.43** | **19,275.39** |
| Digər gəlirlər | 42,705 | 7,135.00 | 2,759.85 |
| **Qeyri-faiz gəlirləri** | **42,705** | **7,135.00** | **2,759.85** |
| İnzibati xərclər | (32,650) | (16,506.69) | (4,590.94) |
| **Qeyri-faiz xərcləri** | **(32,650)** | **(16,506.69)** | **(4,590.94)** |
| **Vergidən əvvəlki mənfəət** | **770,444** | **353,405.74** | **17,444.30** |
| Mənfəət vergisi xərci | (154,112) | (70,681.16) | (853.32) |
| **İl üzrə mənfəət** | **616,332** | **282,724.58** | **16,590.98** |
| **İl üzrə cəmi məcmu mənfəət** | **616,332** | **282,724.58** | **16,590.98** |

**Kapitalda Dəyişikliklər haqqında Hesabat**

*Azərbaycan manatı ilə*

| | **Nizamnamə kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|
| 31 dekabr 2021-ci il tarixinə qalıq | 400,100 | 16,491 | 416,591 |
| İl ərzində buraxılmış səhmlər | 1,030,000 | - | 1,030,000 |
| İl ərzində cəmi məcmu mənfəət | - | 282,725 | 282,725 |
| 31 dekabr 2022-ci il tarixinə qalıq | 1,430,100 | 299,216 | 1,729,316 |
| İl ərzində buraxılmış səhmlər | 814,900 | - | 814,900 |
| Elan edilmiş dividendlər | - | (299,215) | (299,215) |
| İl üzrə cəmi məcmu mənfəət | - | 616,332 | 616,332 |
| 31 dekabr 2023-cü il tarixinə qalıq | 2,245,000 | 616,333 | 2,861,333 |

**Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat**

*Azərbaycan manatı ilə*

| **Açıqlama** | **31 dekabr 2023-cü il (audit olunmuş)** | **31 dekabr 2022-ci il (audit olunmuş)** | **31 dekabr 2021-ci il (audit olunmuş)** |
|---|---|---|---|
| Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəkti: | | | |
| **Vərgidən əvvəlki mənfəət** | **770,444** | **353,405.74** | **17,444.30** |

| | | | |
|---|---|---|---|
| Köhnəlmə xərci | 1,141 | 696.88 | - |
| Hesablanmış alınacaq faiz borclarında azalmalar/(artımlar) | - | (35,709.62) | (4,291.15) |
| Hesablanmış ödənilәcək faiz borclarında azalmalar/(artımlar) | - | 2,582.92 | - |
| Xərclər üçün ödənilmiş avanslarda azalmalar/(artımlar) | - | 12.12 | -12.12 |
| Hesablanmış ödənilәcək inzibati xərclərdə artımlar/(azalmalar) | - | 19.77 | - |
| Əsas vəsaitlərin silinməsindən zərər | 1,931 | - | - |
| Faiz gəlirləri | (893,129) | - | - |
| Faiz xərcləri | 132,740 | - | - |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan (istifadə edilən) pul vəsaitləri** | **13,127** | **(321,007.81)** | **13,141.03** |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər: | | | |
| Maliyyə lizinqi üzrə debitor borcları | (2,573,049) | (1,679,191.71) | (10,696.76) |
| Maliyyə lizinqi obyektlərinin alınması | - | (2,252,720.00) | (415,200.00) |
| Maliyyə lizinqi əməliyyatları üzrə əsas borc yığımları | - | 577,574.58 | 10,696.76 |
| Digər öhdəliklər | 27,972 | 324.21 | - |
| **Vergi və fazilərdən əvvəl əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **(2,531,950)** | **(1,353,843.40)** | **(391,362.21)** |
| Ödənilmiş mənfəət vergisi | (112,422) | (12,123.09) | - |
| Əldə olunmuş faizlər | 858,390 | - | - |
| Ödənilmiş faizlər | (128,105) | - | - |
| **Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **(1,914,087)** | **(1,365,966.49)** | **(391,362.21)** |
| İnvestisiya fəaliyyəti üzrə pul vəsatlərinin hərəkəti: | | | |
| Əmlak və avadanlıqların alınması | - | (4,651.20) | - |
| **İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | **-** | **(4,651.20)** | **-** |
| Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti: | | | |
| Nizamnamə kapitalının emissiyası | 814,900 | 1,030,000.00 | 400,000.00 |
| Ödənilmiş dividendlər | (299,215) | - | - |
| Buraxılmış borc qiymətli kağızları üzrə daxilolmalar | 1,000,000 | - | - |
| Buraxılmış borc qiymətli kağızları üzrə geri ödənişlər | (5,000) | - | - |

| | | | |
|---|---|---|---|
| Digər maliyyə təşkilatlarına qarşı müddətli borc öhdəliklərindən daxilolmalar | 2,142,000 | 795,000.00 | - |
| Digər maliyyə təşkilatlarına qarşı müddətli borc öhdəliklərinin geri ödənilməsi | (1,758,037) | (451,167.38) | - |
| Səhmdardan alınan borc vəsaitlərinin daxilolması | 30,000 | - | - |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **1,924,648** | **1,373,832.62** | **400,000.00** |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım | 10,561 | 3,214.93 | 8,637.79 |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 11,853 | 8,637.79 | - |
| İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri | 22,414 | 11,852.72 | 8,637.79 |

**16.2. Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Emitentin fəaliyyət dövrü ərzində maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən hüquqi proseslər mövcud olmamışdır.

**16.3. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Son audit edilmiş maliyyə hesabatlarının tarixindən sonra Rüblük və ya yarımillik maliyyə hesabatları dərc edilməmişdir.

**16.4. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanmamışdır.

**16.5. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** 2022-ci il sonu ili müqayisədə Emitentin mənfəətliyi və aktivləri əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 31.12.2022-ci il tarixinə aktivlərin məbləği 2.1 milyon manat olduğu halda, 31.12.2023-cü il tarixində bu göstərici 4 750 763 manat olmuş, keçən hesabat ilinin xalis mənfəəti 283 min manat olduğu halda, 2023-cü ilin yekunun görə xalis mənfəəti 616 332 manat məbləğində olmuşdur. Aktivlərin maliyyələşdirilməsi mənbəyi olaraq nizamnamə kapitalına əlavə pul şəklində yatırımlar və istiqraz emissiyası tətbiq edilmişdir. Nizamnamə kapitalının artırılması hesabına Cəmiyyət 950 000 manat, istiqrazların emissiyası hesabına isə 1 milyon manat məbləğində maliyyələşdirilmişdir. Mənfəətliliyin

artımı faiz gəlirləri yaradan maliyyə lizinqi portfelinin müqayisə onunan dövr ərzində 2,119,679 manatdan 4,727,467 manat məbləğinədək artırılması hesabına təmin edilmişdir.

**16.6. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Mövcud deyil;

## 17. Emitent haqqında əlavə məlumatlar

**17.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, payların miqdarı, onların nominal dəyəri və növləri:** Nizamnamə Kapitalının ümumi məbləği 2 340 000 (iki milyon üç yüz qırx min) manat həcmindədir və hər biri 100 (bir yüz) manat olmaqla, 23 400 (iyirmi üç min dörd yüz) ədəd səhmdən ibarətdir.

**17.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:** Emitentin Nizamnaməsi 12.06.2020-ci il tarixində AR İN yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır. Nizamnaməyə son dəyişkilk 16.04.2024-cü il tarixində edilmişdir.

**17.3. Fəaliyyət və məqsədlərin təsviri:** Emitent minik avtomobillərinin maliyyə lizinqinə verilməsi sahəsində fəaliyyət göstərir. Emitentin məqsədi- mənfəətin əldə edilməsi ilə yanaşı, peşəkar yanaşma və yüksək etibarlılıq sayəsində lizinq bazarında yüksək standartlara uyğun bir şirkət olmaqdır.

**17.4. İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:**

Emitentin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır. Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

- Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- Cəmiyyətin icra orqanını yaratmaq və onunu səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Cəmiyyətin Müşahidə Şurasının və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Cəmiyyətin illik hesabatlarını və mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;
- mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;
- xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar qəbul etmək. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir.
- Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək.

Direktorun səlahiyyətinə aşağıdakılar aid edilir:

- Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
- vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;
- Səhmdarların Ümumi Yığıncağının və digər orqanlarının müstəsna səlahiyyətlərinə aid olan məsələlərdən başqa, digər bütün məsəslələri həll edir;
- Cəmiyyətin adından bütün növ müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda Cəmiyyətin cari və başqa

bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır;

- Cəmiyyətin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, Ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;
- Cəmiyyətin struktur bölmələri haqqında əsasnaməni və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;
- Cəmiyyətin işçilərini işə qəbul edib işdən azad edir, işçilərə həvəsləndirmə tədbirləri tətbiq edir, Cəmiyyətin daxili əmək intizamı qaydalarına və qanunvericiliyə müvafiq olaraq onları intizam məsuliyyətinə cəlb edir;
- Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmrlər (sərəncamlar) verir;
- Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır və təsdiq edir;
- Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir.

**17.5. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

## 18. İstiqrazlar barədə tələb olunan məlumat

**18.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:**

*"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti*

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (bundan sonra-BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.

BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower).

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

Tel: (+99412) 539 72 49.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir*Milli Depozit Mərkəzi*

Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir.

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. İstiqrazların yerləşdirilməsi prosesində MDM-in əsas vəzifəsi istiqrazların saxlanması və istiqraz mülkiyyətçilərinin reyestrinin aparılmasıdır.

Milli Depozit Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının "Qiymətli kağızlar bazarı haqqında" Qanunu və MDM-in daxili Qaydaları ilə tənzimlənir.

Anderrayter.

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 12.10.2018 tarixli İŞ-03 nömrəli lisenziyaya malik olan "Assist Finance İnvestisiya Şirkəti" ASC qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Səhmlərin abunə yazılışı müddəti ərzində anderrayter uçota alınmış sifarişləri fond birjasının ticarət sisteminə daxil edir və BFB-nin ticarət sistemi vasitəsi ilə səhmlərinin yerləşdirilməsi xidmətlərini göstərir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə səhmlər yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**18.2. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Emissiyanın məqsədi alternativ maliyyə resurslarının cəlb edilməsi yolu ilə cəmiyyətin fəaliyyətinin genişləndirilməsi faiz gəliri gətirən lizinq portfelinin artırılması yolu ilə daha yüksək mənfəətliliyin təmin edilməsidir. İstiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitin lizinq fəaliyyəti üçün lizinqalanlar tərəfindən sifariş edilən avtomobillərin alınmasına sərf ediləcək.

**18.3. Əldə olunan vəsaitlər hesabına nəzərdə tutulan layihələrin maliyyələşdirilməsi mümkün olmadığı təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin mənbələri və məbləği:** Cəlb ediləcək vəsait hesabına layihənin maliyyələşdirilməsi mümkün olmadığı təqdirdə səhmdarlar tərəfindən nizamnamə kapitalının artırılması nəzərdə tutulmuşdur.

**18.4. Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restruktuzasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayanaktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunan vəsaitlərin sadalanan məqsədlər üçün istifadəsi nəzərdə tutulmamışdır.

## 19. İstiqrazlar barədə məlumat

**19.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Qanun, ləğv olunmuş

Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**19.2. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz;

**19.3. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):** Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1000 (bir min) ədəd faizli təmin edilməmiş istiqraz.

**Tədavüldə olan istiqrazlar:**

1) 08.05.2023 ci il tarixində **AZ2001025462** saylı reyestr nömrəsi ilə qeydiyyatdan keçən Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 500 (beş yüz) ədəd faizli təmin edilməmiş istiqrazlar.

2) 12.09.2023 ci il tarixində **AZ2002025461** saylı reyestr nömrəsi ilə qeydiyyatdan keçən Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 500 (beş yüz) ədəd faizli təmin edilməmiş istiqrazlar.

**19.4. İstiqrazların valyutası: Azərbaycan manatı;**

**19.5. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:**

Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27;

Faktiki ünvanı: Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

**19.6. Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif olunan istiqrazların reytinqi mövcud deyil.

**19.7. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər:**

**İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:**

a) İstiqrazların tədavül müddətinin sonunda istiqrazın nominal dəyərini Emitentdən almaq;

b)İstiqrazın nominal dəyərindən illik 15 (on beş) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;

c) Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

d) Azərbaycan Republikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

İstiqrazlarla təsbit olunan hüquqların həyata keçirilməsi üzrə hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**19.8. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi:** 15%;

**19.9. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 15% təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 30 gündən bir ödəniləcəkdir.İstiqrazların tədavül müddəti 1800 təqvim günü təşkil edir.İstiqrazların dəyəri tədavül müddətinin sonunda ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

**19.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**19.11. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır. Hal-hazırda bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri müşaiyət olunmur.

**19.12. Ödənişlər üzrə hesablaşma agentinin adı:** "LEGİON FİNANCİAL" ASC;

**19.13. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:**yeni emissiya edilən istiqrazlar təminatsız formada emissiya edilir.

**19.14. İstiqrazların geri satın alınmasının şərtləri:** Emitent tərəfindən istiqrazların tədavülü müddətində geri alınması nəzərdə tutulmuşdur.

**19.15. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:**

İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1800 təqvim günü təşkil edir. İstiqrazların tədavül müddəti istiqrazların BFB-də yerləşdirildiyi gün başlayır. İstiqrazların nominal dəyəri istiqrazların tədavül müddətinin son günündə ödəniləcək.

İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri - 1000 (Bir min) Azərbaycan manatı ;

D- İstiqrazların illik gəlirlik dərəcəsi -15 (on beş);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti - 30 gün.

**19.16. İstqirazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** Cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağının 8 №-li, 16 aprel 2024-cü il tarixli Protokolu.

**19.17. İstiqrazlar üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən verginin tutulması barədə emitentin öhdəliyi:** AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə fiziki şəxslərə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların

dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

**19.18. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** potensial investorlar hüquqi şəxslər, banklar, sığorta təşkilatları, investisiya şirkətləri, rezident və qeyri rezident fiziki şəxslər ola bilər. Xarici hüquqi şəxslərin də istiqrazları alması mümkündür. Potensial investorların istiqrazlar barədə məlumatlandırılması üçün internet resurslarından və anderrayter vasitəsilə fərdi görüşlərin keçirilməsi nəzərdə tutulub. Anderrayter və emitent müraciət edən istənilən potensial investora müfəssəl məlumat verəcəkdir.

**19.19. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** istiqrazların əldə edilməsinə heç bir məhdudiyyət qoyulmayıb.

## 20. Təklifin şərtləri

**20.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:**

- **Yerləşdirmənin başlanma tarixi:** yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin saytında investorlara açıqlanacaqdır.
- **Yerləşdirmənin başaçatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün. Hərrac 1 günə baş tutacaq.

**20.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektdə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**

Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilir. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**20.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:**Təklif "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

**20.4. İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:**İstiqrazların yerləşdirilməsi prosesində abunə yazılşı nəzərdə tutulmamışdır.

**20.5. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası və şərtləri:**

İstiqrazlar Bakı Fond Birjası QSC-nin ticarət platformasında birqiymətli hərrac üsulu ilə yerləşdiriləcəkdir. Hərrac zamanı investorlar tərəfindən eyni qiymət ilə təqdim edilən sifarişlərdə istiqrazlara tələbat təklifdən çox olduğu təqdirdə, istiqrazlar sifarişlərin icrası şərtlərinə müvafiq olaraq investorlar arasında sifarişlərdə göstərilmiş istiqrazların miqdarına mütənasib miqdarda yerləşdirilir. Yerləşdirmə müddəti ərzində investorlar istiqrazların alınması üçün pul vəsaitlərini "Azər-Türk Bank" ASC-də emitentin adına açılmış müvəqqəti

cari hesaba köçürməlidirlər. İstiqrazların dəyəri pul şəklində ödənilməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) açıqlanır.

**20.6. İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** "Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu" və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar"la tənzimlənir. İstiqrazların dəyəri pulla ödənilir və bu pul vəsaitləri emitentin "Azər-Türk Bank" ASC-də açılmış müvəqqəti cari bank hesabına köçürülür. Kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar istiqrazların dəyərinin investorlar tərəfindən ödənilməsi haqqında məlumatları aldıqdan sonra istiqrazların investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

**20.7. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** emissiya ediləcək istiqrazlar həm fiziki həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**20.8. İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Hərracın keçirildiyi gün investorlara hərracın başlanması saatı elektron poçt vasitəsi ilə bildiriləcəkdir.

**20.9. İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirilməsi metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat**: 1000 Azərbaycan manatı.

**20.10. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə fiziki şəxslərə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

əqdin məbləğinin 0,02%-i həcmində "Bakı Fond Birjası" QSC komissiyası;

investisiya şirkətinin xidmət haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;

istiqraz alıcısının depo hesabı olmadığı təqdirdə "depo" hesab açılması üçün 10 manat (bu məbləğin 5 manatı MDM-in komissiyası, digər 5 manat isə investisiya şirkətinin komissiyası təşkil edir);

hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

**20.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:** Səhmlər "Assist Finance İnvestisiya Şirkəti" ASC. tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir.
12.10.2018 tarixli İŞ-03 nömrəli lisenziyaya malik olan "Assist Finance İnvestisiya Şirkəti" ASC.
Ünvanı: Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti 37, Dəmirçi Plaza 22-ci mərtəbə
Telefon: 994 012 599 11 38
Emitent Anderrayterlə bağlanılmış müqaviləyə əsasən komissiya ödəyəcəkdir.
**20.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** Cəmiyyət və "Assist Finance İnvestisiya Şirkəti" ASC arasında anderrayter müqaviləsi qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

## 21. Ticarətə buraxılma və onun tənzimlənməsi

**21.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar haqqında məlumat və ticarətə buraxılma şərtləri:**
İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə hərracın keçirilməsi üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.
"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti
VÖEN-i: 1700262271
Dövlət qeydiyyatının tarixi və nömrəsi: 27.08.1997-ci il, № 3
"Bakı Fond Birjası" QSC müddətsiz lisenziyaya malikdir. Fəaliyyət istiqaməti- Dövlət qiymətli kağızları bazarının, korporativ qiymətli kağızlar bazarının, törəmə maliyyə alətləri bazarının ticarətinin təşkil və idarə edilməsidir. Qiymətli kağızların ticarətə buraxılması "Bakı Fond Birjası" QSC-nin "Bakı Fond birjasında qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" na əsasən həyata keçirilir.
**21.2. Market meyker(lər) barədə məlumat:** Emitent tərəfindən gələcəkdə istiqrazların təkrar bazarda tədavülü üçün prosesə market meyker(lər) cəlb edilə bilər.

## 22. Kredit reytinqləri

**22.1. Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** mövcud deyil.